الوسائل الشرعية لدفع السحر قبل وقوعه

# CADU BAŞ VERMƏZDƏN ƏVVƏL ŞƏRİİ VASİTƏLƏRLƏ QORUNMAĞIN YOLLARI

Şeyx
Heysəm Sərhan
"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

Azərbaycan dili

اللغة الأذرية

ALSARHAAN.COM MAHADSUNNAH.COM

## Sual: Sehr (yəni Cadu) baş verməzdən əvvəl hansı şərii vasitələrlə qorunmaq olar?

Cavab: Cadu təhlükəsi baş verməmiş onun qarşısını almaq üçün ən mühüm vasitələrdən biri, şərii zikrlər, dualar və sünnədə gələn Allaha sığınma zikirləridir.

**Bunlardan biri də:**

- ✓ Ayətul kusini, yatan vaxtı və hər fərz namazdan sonrakı səhih zikirlərin ardınca oxumaq.
- ✓ Hər fərz namazından sonra ixlas və sığınma (fələq və nəs) surələrini oxumaq.
  Bunları günün əvvəlində Sübh namazından sonra və gecənin əvvəlində məğrib namazından sonra üç dəfə oxumaq lazımdır.
- ✓ Gecənin əvvəlində bəqərə surəsinin sonundan iki ayəni oxumaq. Uca Allahın bu sözündən:
  ﴿ءَامَنَ ٱلرَّسُولُ بِمَآ أُنزِلَ إِلَيۡهِ مِن رَّبِّهِۦ وَٱلۡمُؤۡمِنُونَ﴾
  surənin sonuna kimi.
- ✓ Bu zikri gecə və gündüz, hər hansı bir yerdən binaya, səhraya, havaya və ya dənizə enərkən çox oxumaq.
  أَعوذُ بِكَلِمَاتِ اللهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَق
  "Əuzu bikəlimətilləhit-təmməti min şərri mə xaləq"
  (Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram!)

- ✓ Günün əvvəlində və gecənin əvvəlində üç dəfə bu zikri etmək:

بِسْمِ اللهِ الَّذِي لاَ يَضُرُّ مَعَ اسْمِهِ شَيْءٌ فِي الْأَرْضِ وَلاَ فِي السَّمَاءِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ

Bismilləhil-ləzi lə yədurru məa ismihi şeyun fil-ardı və lə fis-səmai və huvəs-səmiul-alim.

(Allahın Adı ilə! Hansı ki, adı çəkildikdə yerdə və göydə heç bir şey zərər verə bilməz. O, Eşidəndir, Biləndir!)

Bu zikrlər və Allaha sığınma duaları sehrin və digər şeylərin şərindən qorunmağın ən böyük səbəblərindəndir. Bu da onu:

- İxlasla
- İmanla
- Allaha güvənlə
- Ona təvəkkül edərək
- Və onun dediklərini  tam qəlblə təsdiq edib qoruyan kəs üçündür.

Həmçinin, sehrin meydana çıxmasından sonra onu dəf etməyin ən böyük səbəblərindən biri də, zərəri aşkara çıxarmaq və zərəri aradan qaldırmaq üçün nöqsansız Allaha çoxlu dualar etməkdir

**Daha doğrusun Allah bilir**